**UOT 902**
**https://doi.org/10.59849/2218-4783.2025.1.106**

**ZİNİYƏT MƏMMƏDOVA**

# NAXÇIVAN ANTİK DÖVR QƏBİRLƏRİNDƏN TAPILAN BƏZƏK NÜMUNƏLƏRİ

*Naxçıvanın Antik dövrə aid bəzək əşyalarının tədqiqi, o dövrün mədəni və sosial aspektləri, dövrün sənətkarlıq səviyyəsi, sosial quruluşu və dini inancları barədə geniş məlumat verir. Abidələrdən əldə edilən bəzək əşyaları, xüsusilə müxtəlif minerallardan hazırlanan muncuqlar, möhürlər və bilərziklər insanların həmin dövrdəki həyatını, dünyagörüşünü daha yaxşı öyrənməyə imkan yaradır. Beləliklə, bu bəzək əşyaları yalnız maddi obyektlər deyil, keçmişi özündə əks etdirən, itirilmiş mədəniyyətlər və qədim insanların dünyagörüşüləri haqqında məlumat verən maddi nümunələrdir.*

**Açar sözlər:** *Naxçıvan, Antik dövr, bəzək əşyaları, muncuq, bilərzik.*

**Giriş.** Naxçıvanın Antik dövrünə dair yazılı məlumatlar olduqca az olduğundan bu dövrü geniş şəkildə öyrənmək yalnız maddi-mədəniyyət nümunələri əsasında mümkündür. Azərbaycanın Antik tarixini öyrənən tədqiqatçılar ölkənin müxtəlif bölgələrində zəngin maddi mədəniyyət nümunələri üzə çıxarmışdır. Bu tapıntılar arasında Antik dövrə aid bəzək nümunələri xüsusi əhəmiyyət kəsb edir. Arxeoloji qazıntılar zamanı əldə olunan bəzək nümunələri, xüsusilə də qəbirlərdən aşkar edilmiş müxtəlif formalı muncuqlar, bilərziklər, boyunbağılar, üzüklər, sırğalar, möhürlər vardır. Arxeoloji tədqiqatlar göstərir ki bəzək əşyaları bəzək kimi istifadə olmaqdan əlavə, məzarın aid olduğu şəxsin sosial statusu, var-dövləti və mövqeyi haqqında da məlumat verir. Qiymətli materiallardan hazırlanmış əşyalar yüksək təbəqəyə aid şəxslərin məzarlarından tapılır, sadə bəzək əşyaları isə daha kasıb və orta təbəqənin məzarlarından tapılırdı. Bəzək əşyaları ticarət yollarını, müxtəlif xalqlar arasında əlaqələri və mədəniyyətlərin qarşılıqlı əlaqələri də öyrənməyə imkan verir. Bu baxımdan Antik dövr bəzək əşyalarının tədqiqi olduqca əhəmiyyətlidir.

**Bəzək əşyaları.** Antik dövrə aid bəzək nümunələri əsasən küp və daş qutu tipli qəbirlərdən əldə edilmişdir. Bu qəbirlər, xüsusilə də çoxluq təşkil edən küp qəbirlər Oğlanqala, I Camaldın, Qoşadizə, II Böyükdüz, Ağbulaq, Tivi, I Albantəpə, Şıxmahmud, Muncuqlutəpə, eləcə də I, II və III Antik Naxçıvan nekropollarında və Tumbultəpə yaşayış yerində aşkar edilmişdir.

**Muncuqlar.** Muncuqlar əsasən qəbir abidələrində, xüsusilə küp və daş qutu tipli qəbirlərdən tapılmışdır. Muncuqların müxtəlif növlərinə rast gəlinmişdir. Bunlara əsasən əqiq, şüşə və pasta muncuqlar aiddir.

**Əqiq muncuqlar.** Antik dövrə aid əqiq muncuqlar, arxeoloji qazıntılarda tez-tez rast gəlinən bəzək əşyalarından biridir. Əqiq muncuqlar fərqli rəng çalarlarında və müxtəlif formalarda: diskşəkilli, silindrik, konusvari və s. ola bilir. Onların istehsalı və istifadəsi antik dövr insanlarının estetik zövqünü, zərgərlik bacarıqlarını və ticari əlaqələrini göstərir. Əqiqin fiziki xüsusiyyətləri (çox vaxt qırmızı, çəhrayı və qəhvəyi rənglərdə olur) onu zərgərlikdə dəyərli materiala çevirib. Bu muncuqlar, həmçinin, dəfn zamanı da istifadə edilmişdir. Məsələn, Naxçıvanın antik nekropollarından, xüsusilə I Antik Naxçıvan və Ağbulaq nekropollarından tapılan əqiq muncuqlar yerli əhalinin qədim dövrdə bu materiala marağını və onun əhəmiyyətini göstərir.

Ağbulaq nekropolundan tapılan hər iki küp qəbirdən də əqiqdən hazırlanmış muncuqlar aşkar edilmişdir. Onlardan birinci qəbirdən əldə edilən 6 muncuqdan 2-si əqiqdəndir və hər 2 muncuq da silindrik formadadır. Digər qəbirdən müəyyən edilmiş 2 muncuqlardan biri diskşəkilli, digəri isə silindrik formadadır və üzərində ağ və qara zolaqlar vardır [11, s. 61]. Digər bir tapıntıda, I Antik Naxçıvan nekropolunda 3 №-li küp qəbirdə qırmızı əqiqdən hazırlanmış diskşəkilli muncuqda ikitərəfli deşik və yaxşı cilalanma xüsusiyyəti qeyd olunur. Həmçinin, 4 №-li küp qəbirdən bir ədəd dördkünc formalı, yastı, alçaq çəhrayı rəngli əqiq muncuq tapılmışdır. Eyni ərazidən aşkar edilən 6 №-li

qəbirdən isə şarşəkilli kiçik qırmızı əqiq muncuqlar tapılmışdır. Qeyd etmək lazımdır ki, III Antik Naxçıvan nekropolundan da əqiq daşından hazırlanmış muncuqlar əldə olunmuşdur [7, s. 78, 79, 82].

**Şüşə muncuqlar.** Şıxmahmud nekropolunda aparılan tədqiqatlar zamanı daş qutu qəbrindən əldə edilən skeletin boyun nahiyəsində 78 ədəd tünd mavi rəngli, üzəri diş-diş işlənmiş, ortasında kiçik dairəvi dəlik olan şüşə muncuqlar aşkar edilmişdir [4, s. 93].

Ağbulaq nekropolundan tapılan konus formalı şüşə muncuğun ucları bir-birinə toxunan halqaşəkilli muncuqdur [11, s. 61]. İkinci küp qəbirdən tapılan dörd muncuqdan ikisi şüşədən hazırlanmışdır və bu şüşə muncuqlar müxtəlif formalara malikdir. Onlardan biri şarşəkilli, digəri isə uzunsov forma göstəriciləri ilə fərqlənir və üzərində yarımşar çıxıntılar mövcuddur [11, s. 63]. Dairəvi və uzunsov muncuq nümunələrinə Albantəpə nekropolundakı qəbirdən tapılmış açıq yaşıl rəngdəki muncuqları da aid etmək olar [10, s. 14].

I Antik Naxçıvan nekropolunda 3 №-li küp qəbirdən çəlləkşəkilli xırda və ağ rəngli şüşə muncuq əldə edilmişdir. 4 №-li küp qəbirdən tapılmış digər nümunə isə qara rəngli, uzunsov formalı şüşə muncuqdur. Bu muncuğun üzəri ağ pasta ilə işlənmiş sınıq xətlərdən ibarət inkrustasiya ilə bəzədilmişdir və hər iki tərəfi deşikdir. Ağ və boz rəngli muncuqlar silindrik, uzunsov, dördkünc formadadır. Onlardan bir ədədi dördkünc olub, üzəri piramida şəkilli və qabarıqdır [7, s. 78-79].

Bundan əlavə, göy rəngli şüşədən hazırlanmış bir qrup muncuq çəlləkşəkilli, silindrik, üçtilli və boğmalı formalara malikdir. Bu tapıntılar arasında göy şüşədən hazırlanmış quş başı fiquru formasında muncuq da qeyd olunmuşdur. 6 №-li küp qəbirdən tapılan muncuqların bir hissəsi göy rəngli şüşədən hazırlanmışdır. Bu dairəvi formalı muncuqların üzəri, ağ pastadan ibarət kiçik gözcüklərlə inkrustasiya edilmişdir. Eyni zamanda, ağ pastadan hazırlanmış dairəvi muncuqlarda tünd boz rəngli şüşədən ibarət gözşəkilli inkrustasiyalar müşahidə olunmuşdur. Göy şüşədən hazırlanmış şarşəkilli muncuqlar isə qırmızı rəngli pastadan kiçik dairəvi inkrustasiyalarla bəzədilmişdir [7, s. 82]. Bunlardan əlavə, Tumbultəpə yaşayış yerindən qəbirdən qırmızı rəngli şüşə muncuqlar tapılmışdır ki, bu tapıntının rənginə görə digər şüşə muncuqlardan fərqləndiyini demək olar.

Qeyd etmək lazımdır ki, Qoşadizə, Muncuqlutəpə, Şıxmahmud və II Antik Naxçıvan nekropollarından bəzək əşyası olaraq yalnız muncuq nümunələri əldə olunmuşdur. Xüsusilə, Muncuqlutəpə ərazisindən tapılan şüşə muncuqlara görə, əhali bu məkanı belə adlandırmışdır [9, s. 78-79].

**Pasta muncuqlar.** I Camaldın nekropolunda daş qutu qəbirlərdən birində skeletin boyun hissəsindən çox sayda şəvə və serdolik muncuqlar aşkar edilmişdir. Bunlarla bərabər Finikiya mənşəli şirli muncuq da aşkar edilmişdir [4, s. 176].

I antik Naxçıvan nekropolu 4 №-li qəbirdən çıxarılan muncuqların bir qismi ağ, boz rəngli pastadan hazırlanmış dördkünc formadadır. Onlardan birinin üzəri cızma xətlərlə kvadratlara bölünmüşdür. 6 №-li küp qəbirdən tapılan ağ və boz rəngli pastadan hazırlanmış muncuqlar isə əsasən kiçik ölçülüdür. Bəzi muncuqların deşikləri kiçik olsa da, digərlərində daha genişdir. Qara rəngli pasta muncuq isə çəlləkşəkilli formaya malikdir və uzununa ikitərəfli deşiklə tamamlanır. 300-ə yaxın muncuq boz rəngli süxurdan hazırlanmış narın muncuqlar olub, yastı və şarşəkilli formadadır [7, s. 82]. Ağ rəngli pasta muncuğa Tumbultəpə küp qəbrində də rast gəlinmişdir. Bu muncuqlara iki tərəfi deşikli, nisbətən böyük, çəlləkşəkilli muncuqlar, həmçinin açıq yaşıl rəngli, 4 çıxıntılı və 4 deşikli, üzəri üfüqi xətlərlə bəzədilmiş muncuqlar aiddir [8, s. 131].

Ağbulaq nekropolundan tapılmış 6 muncuq arasında diskşəkilli obsidian muncuq da var və üzərində vəhşi heyvanla vuruşan sxematik insan təsviri yer alır [11, s. 61]. Obsidian muncuqlara nadir hallarda rast gəlinmişdir.

**Bilərziklər və boyunbağılar.** I Antik Naxçıvan nekropolunda tədqiq edilmiş 3 №-li küp qəbirdən gümüş bilərziklər ellipsvarı olub, ortası əyməlidir. Ucları ilan başı fiquru şəklində düzəldilmişdir. Cızma gəzlərlə əhatə edilmişdir. Bu tip gümüş bilərziklər Mingəçevirdə e. ə. V-III əsrlərə aid torpaq qəbirlərdən də tapılmışdır. Eyni tipli qızıl, gümüş, tunc bilərziklər Gürcüstan ərazisində, e. ə. IV əsrə aid küp qəbirlərindən məlumdur. Əhəməni mədəniyyətinin yayıldığı ərazilərdən, eləcə

də Kipr Suriya və Misirdən məlum ortası əyməli bilərziklər e. ə. V əsrin sonu e. ə. IV əsrin birinci yarısına aid edilir. Gümüş boyunbağı nazik lövhədən hazırlanmış, uc hissələri buynuzşəkillidir. Üzəri dalğavarı cızma naxışlarla bəzədilmişdir [7, s. 76-78].

I Antik Naxçıvan nekropolunda 4 №-li küp qəbirlərindən beş ədəd tunc bilərzik, iki ədəd tunc boyunbağı tapılmışdır. Burdan əldə edilmiş tunc bilərziklər üç qrupa bölünür. Birinci qrupa en kəsiyi dairəvi olan ellipsvarı bilərziklər daxildir. Onların ortası əyməli, ucları orta hissəyə nisbətən yoğundur. Üzərləri hamar olub naxışsızdır. Bu bilərziklər 3 №-li küp qəbirlərdən tapılmış ortası əyməli bilərziklərlə eyniyyət təşkil edir. İkinci qrupa dairəvi formalı burma bilərziklər daxildir. Onların ucları bir-birinin üzərinə sıxılmışdır. Üçüncü qrupa yastı, lentvarı, ensiz lövhədən hazırlanmışdır dairəvi bilərzik daxildir. Bir ucu ilanbaşı fiqurlu formasındadır. Bu ucunda düz və çəp cızma xətlər vardır. Tunc boyunbağılar dairəvi formada olub, en kəsiyi dairəvi formadadır. Ucları nisbətən yoğundur.

Bu tip bilərziklər və boyunbağılar son dövrlərdə Vəli Baxşəliyevin rəhbərliyi ilə Tumbultəpə yaşayış yerindən aparılan tədqiqatlarda aşkar edilmişdir. Burada aşkar edilmiş qəbir abidələrindən birindən 1 boyunbağı və 4 tunc bilərzik tapılmışdır. Yaxşı cilalanmış və üzəri yarımkəsmə xətlərlə bəzədilmiş bilərziklərin 1-i skeletin barmağından, 2-si yuvarlaq, digər 1-i diskşəkilli əqiqlə bəzədilən 3 üzük isə skeletin yanında müəyyən edilmişdir. Tunc bilərziklərin biri Antik Naxçıvan nekropolundan (3 №-li qəbirdən) tapılmış gümüş bilərziklərlə oxşarlıq təşkil edir. Onun uc qismi ilan başı formasındadır. Ucları bir-birinin üzərinə düşən bilərzik də həmin ərazidən tapılmış bilərziklərlə bənzərdir [8, s. 130].

**Üzüklər.** Antik dövrdə üzüklər döymə və tökmə üsulu ilə düzəldilir; bəzən qiymətli daşlardan və şüşələrdən qaş qoyulur, zoomorf təsvirlər və müxtəlif həndəsi naxışlarla bəzədilirdi. Bəzi qaşlı üzüklər möhür rolunu oynayırdı və xronoloji cəhətdən, bir qayda olaraq, qaşsız üzüklərə nisbətən daha sonralara aiddir. Üzük-möhürlərin xarici nümunələri adətən Romadandır. Onlar Qafqaz Albaniyasının Roma ilə geniş əlaqələrə malik olmasını təsdiq edir [3, s. 343].

I Camaldın nekropolunda daş qutu qəbirlərdən birində skeletin əl barmaqlarından birində tunc üzük tapılmışdır. Tunc üzük nümunəsinə həmçinin II Böyükdüz nekropolundan, Tivi nekropolundan və Ağbulaq nekropolundan tapılan qəbirlərdə də rast gəlinmişdir. Ağbulaq nekropolunda tapılmış tunc üzüklərin hər ikisi də diqqətəlayiqdir: biri kəsikdə dairəvi olan tunc məftildən hazırlanmış və ucları cızma xətlərlə bəzədilmişdir. Digər üzük isə nazik tunc təbəqədən ibarət olub, rombşəkilli qaşı vardır, qaşında isə cızma işarələr yerləşdirilmişdir [9, s. 49], [4, s. 127, 265].

Oğlanqalada tapılan küp qəbirlərdən birində cinsi məlum olmayan insana aid Roma imperiyasından gətirildiyi zənn edilən olduqca zəngin avadanlıqla dəfn edilmiş skeletin bir tunc və dörd qaşlı üzüyü var idi. Onların üzərində inək və medalyon təsviri var idi [5, s. 113-114]. Tumbultəpə qəbir abidəsindən 8 ədəd tunc üzük aşkar edilmişdir ki, onların 4-ünün ağzı sıxılmış, 1-i isə tam halqa şəklindədir. Bu üzüklərdən üçü üzərində əqiq muncuq, biri üzərində isə kəsmə xətlərlə naxışlar vardır [8, s. 130]. Buna bənzər nümunə İsmayıllı rayonu Çərmədil nekropolunda 2 №-li küp qəbirdən tapılmış skeletin sol əlində aşkar edilmişdir. Üzüyün üzərində zoomorf təsviri olan əqiq daşından qaşı vardır. Eyni ərazidə olan 3 №-li küp qəbirdən yeniyetmə uşağa aid skeletin barmağından və 4 №-li küp qəbirdən qaşlı tunc üzük və 1, 4, 15, 17, 18, 20 və 21 №-li torpaq qəbirlərdən də tunc üzüklər aşkar olunmuşdur [2, s. 213-219].

Aşkar edilmiş üzük növləri içərisində şüşə üzük də var idi ki, həmin üzüyə Albantəpə nekropolundakı qəbirdə tapılmış qadına məxsus skeletin sol qolunun ikinci barmağında rast gəlinmişdir. Üzüyün üst hissəsi müstəvi formaya salınıb [10, s. 14].

I Antik Naxçıvan nekropolunda aparılan qazıntılar zamanı 3 №-li küp qəbirdən tapılmış dəmir üzük xüsusi maraq doğurur. Üzüyün kiçik ölçülü, yumru şüşə qaşı mövcuddur. Dəmir üzük nümunəsinə Meydantəpə abidəsində də rast gəlinmişdir ki, 0,4 sm qalınlığındakı bu üzüyün üzərindəki möhür korroziyaya uğramışdır [1, s. 81].

**Sırğalar.** Bəzək şeyləri arasında sırğalar xüsusi yer tutur. Sırğalara əsasən I Antik Naxçıvan nekropolunda rast gəlinmişdir. Burada 4 №-li qəbirdən çıxarılan serdolik sırğalar qırmızı rəngi və ellipsvarı forması ilə diqqət çəkir; bu sırğalar qönçə gülünü xatırladan dizaynda hazırlanmış, səthi yaxşı cilalanaraq parlaq görünüş əldə etmişdir. Sırğanın bir ucuna səkkiz rəqəminə bənzəyən burma qızıl halqa keçilmişdir. Eyni zamanda, uzunsov formalı qara aqat sırğalar da tapılmışdır ki, onların baş hissəsində məftil keçirmək üçün ikitərəfli deşik açılmış, səthləri isə cilalanaraq parlaqlaşdırılmışdır. Tapıntılar arasında VI qəbirdən çıxarılan bir ədəd ellipsvarı ağ pasta sırğa da yer alır; sırğanın ucunda məftil üçün ikitərəfli deşik açılmış, burada nazik tunc məftilin bir hissəsi saxlanılmışdır [7, s. 81]. Sırğa nümunəsinə həm də Tivi nekropolunda rast gəlinmişdir.

**Möhürlər.** I Antik Naxçıvan nekropolunun 4 №-li küp qəbrindən tapılan möhür diqqətəlayiq bir tapıntıdır. Ağ pastadan hazırlanmış bu dairəvi möhür qabarıq dairə ilə əhatələnmiş və kənarları incə arpacıqlarla bəzədilmişdir. Möhürün mərkəzində günəşi əks etdirən şüşə formalı qabartmalar yer alıb və səthi göy rəngli şir ilə örtülüb. Arxa tərəfində lent formasında kiçik bir tunc halqa yerləşdirilmişdir ki, bu da möhürün asılması üçün nəzərdə tutulmuşdur. Möhürdə həyat, bolluq və məhsuldarlıq rəmzi kimi qəbul edilən günəş təsviri yer alır.

Bu qəbirdən tapılmış iki çoxtilli möhür xüsusilə dəyərlidir. Möhürlərdən biri göy rəngli şüşədən hazırlanmış dördkünc formalı, üzərində çoxsaylı çıxıntılar olan bir möhürdür. Möhürün uzununa ikitərəfli deşik açılmışdır və üzərində qanadlı atla şirin döyüş səhnəsi həkk olunmuşdur: at arxa ayaqları üstə qalxıb, qarşısındakı şir isə pəncələri ilə ona doğru uzanmışdır. Azərbaycanda bu tip çoxtilli şüşə möhürlər Mingəçevirdə də tapılmış olsa da, bu tip möhürlərin ən çox tapıldığı yer kimi Gürcüstanın Tsalk rayonu qeyd edilir [7, s. 82].

Naxçıvan şəhərindən tapılan çoxtilli şüşə möhürün analoji möhürlərlə müqayisəsi sübut edir ki, e. ə. V-IV əsrlərdə Azərbaycanın qonşu Yaxın Şərq ölkələri ilə ticarət əlaqələri xeyli güclənmişdir. Araşdırmalara görə, Azərbaycanda və eləcə də Cənubi Qafqazda çoxtilli şüşə möhürləri ticarət əlaqələri əsas rol oynamışdır.

Ağ rəngli digər şüşə möhür dördkünc formada hazırlanmış, üst hissəsi qabarıq və çoxtillidir. Üzərində tək heyvan rəsmi həkk olunmuşdur. Heyvanın dik qulağı və yuxarıya qatlanmış quyruğu vardır. Çox güman ki, bu möhürün üzərində şir rəsmi həkk olunmuşdur [7, s. 83].

**Düymələr.** Antik Naxçıvan nekropolundan tapılmış 3 №-li küp qəbrində tünd göy rəngli şüşə düymə aşkar edilib. Bu düymə piramida formasındadır və ortasında ikitərəfli deşik mövcuddur. Düymənin konstruksiyası onun istifadə olunduğu məqsədin, bəlkə də bəzək və ya funksional əşya olduğunu göstərə bilər. Tunc milin bir ucu nisbətən yoğun və uzunsov formalıdır, bu da onun zamanında gündəlik həyat və ya bəzək əşyası kimi istifadə olunduğunu ehtimal etdirməkdədir.

4 №-li küp qəbrindən boz rəngli pasta düymə tapılmışdır. Bu düymə kəsik piramida formasındadır və ortasında da ikitərəfli deşik vardır. Üzəri yaxşı hamarlanmış dairəvi cızıq izləri ilə əhatə edilmişdir, bu isə onun istehsal prosesinin və sənətkarın bacarığının yüksək səviyyədə olduğunu göstərir.

**Sancaqlar.** Ağbulaq nekropolundan tapılan ikinci küp qəbrində iki ədəd tunc sancaq aşkar edilib. Sancaqdan biri yarımşar formada olub, gövdəsinin yuxarı hissəsi bir-birini əvəzləyən düzbucaqlı və romb fiqurları ilə bəzədilmişdir. Lakin bu sancaq bir yerdən qırılmışdır, bu da onun uzun müddət istifadə olunduğunu sübut edir. İkinci sancaq kəsikdə dairəvi olan məftildən hazırlanmışdır. Onun baş tərəfi döyülərək yastılaşmış və halqa şəklində burulmuşdur ki, bu da onun estetik dəyərini artırır [4, s. 265].

**Zınqırov.** Bundan əlavə, Ağbulaq ərazisindən tapılan tunc zınqırov konusvarı formada olub, rombşəkilli asqı ilə tamamlanır. Zınqırov üzərində şəbəkəli üçbucaq və cızma xətləri ilə naxışlar vardır, bu da onun dekorativ və ritmik funksiyalarda istifadə olunduğunu göstərir. Dəmir qırığı isə pis saxlanılmışdır; o, kəsikdə dairəvi olub, bir ucu burularaq üzərinə qatlanmışdır. Bu tapıntılar,

Naxçıvan regionunun qədim dövrlərdəki mədəniyyətini və sənətkarlığını işıqlandıran önəmli nümunələrdir [11, s. 62].

**Fibulalar.** Təkcə sancaq kimi deyil, həm də estetik görünüş üçün istifadə olunan fibulalar Azərbaycan ərazisində, xüsusən də Naxçıvanda nadir rast gəlinən bəzək nümunələridir. Antik dövrə aid bu fibula 2023-cü ildə Tumbultəpədə aparılan qazıntılar zamanı aşkar edilmiş qəbir abidəsində müəyyən edilmişdir. Bu fibulanın gövdə hissəsi bütöv qalsa da, başlıq və iynəsinin bir qismi qırıq haldadır [8, s. 132]. Bu sancaq növü Tunc dövründən erkən orta əsrlərə qədər yayılmış və ölkə ərazisində Naxçıvanla yanaşı Şamaxı və Mingəçevirdə də aşkar edilmişdir. Həmçinin xüsusi qeyd edilir ki, ölkəmizdə tapılmış fibulalar digər ərazilərdə (Mərkəzi Avropa və Şimali Qara dənizdə) tapılanlardan tamamilə fərqlənir [12].

**Balıqqulağı.** I Camaldın nekropolundakı qəbirdə Skeletin kəllə sümüyünün üstündə bir-birinin üzərinə qoyulmuş iri balıqqulaqları tapılmışdır ki, bu adətə Naxçıvanda ilk dəfə rast gəlinmişdir. Balıqqulağından bəzək əşyası kimi istifadə olunması adətinin geniş yayıldığı dövr əsasən e. ə. II minilliyin sonu, I minilliyin əvvəlinə təsadüf edirdi. Azərbaycan ərazisində balıqqulağına Mingəçevirdə e. ə. IX-VII əsrlərə, Xocalı-Gədəbəy mədəniyyətinə aid qəbirdə və Dəlmə nekropolunda dördbucaq formada yonulmuş halda rast gəlinmişdir [6, s. 194], [1, s. 62].

**Nəticə.** Tədqiq edilən arxeoloji nümunələr həmin dövr insanlarının inancları və sosial strukturları barədə geniş məlumatlar əldə etməyə imkan verir. Araşdırmalar göstərir ki, bəzək əşyaları tarixin müxtəlif dövrlərində, əsasən də, Antik dövrdə yalnız bəzək məqsədilə deyil, həm də sosial status, dini inanclar və cəmiyyətdəki mövqeyini göstərir. Bu tapıntılar, bölgənin qədim dövrlərdəki mədəni həyatının izlərini günümüzə daşıyan vacib arxeoloji dəlillərdir. Antik dövr qəbirlərindən əldə edilmiş bəzək nümunələrinin müxtəlifliyi, zəngin, bir-birindən fərqli növlərinin olması, hər birinin yüksək zövqlə hazırlanması bizə onu göstərir ki, həmin dövrdə zərgərliyin fərqli istehsal texnologiyası və müxtəlif bədii zərgərlik üslubları mövcud olmuşdur. Bəzək nümunələrin müqayisəli təhlili ticarət əlaqələrinin və mədəniyyətlərarası qarşılıqlı əlaqələrin olduğunu deməyə imkan verir.

## ƏDƏBİYYAT

1. Azərbaycan arxeologiyası. Bakı: Xəzər Universiteti, 2010, 162 s.
2. Azərbaycanda arxeoloji tədqiqatlar-2012. Bakı: Xəzər Universiteti, 2013, 380 s.
3. Azərbaycan tarixi: 7 clddə. I c.: Ən qədimdən – b. e. III əsri, Bakı: Elm, 2007, 520 s. + 40 s. illüstrasiya.
4. Baxşəliyev V.B. Naxçıvanın arxeoloji abidələri. Bakı: Elm, 2008, 301 s.
5. Baxşəliyev V.B., Quliyeva F.Q. Naxçıvanın Tarixi abidələri. Bakı: Nurlan, 2017, 212 s.
6. Baxşəliyev V.B. Azərbaycan arxeologiyası: Ali məktəb tələbələri üçün vəsait. Bakı: Elm, 2007, 239 s.
7. Əliyev V.H. Naxçıvan şəhərinin Antik dövrü küp qəbri abidələri // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 1976, № 1, s. 76-83.
8. Həsənova H. Antik dövrə aid yeni qəbir abidəsi / Şərqin qapısı-Qədim diyar II: Məqalələr toplusu, 2024, s. 129-134.
9. Naxçıvan abidələr ensiklopediyası. Naxçıvan: Əcəmi, 2008, 519 s.
10. Novruzlu Ə.İ., Baxşəliyev V.B. Şərurun arxeoloji abidələri. Bakı: Elm, 1993, 184 s.
11. Novruzlu Ə.İ., Baxşəliyev V.B. Şahbuz bölgəsinin arxeoloji abidələri. Bakı: Elm, 1992, 144 s.
12. Tarix Muzeyinin incilərindən: gümüş fibula-sancağı.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: ziniyet1999@gmail.com***

**Zinyat Mammadova**

## SAMPLES OF JEWELRY FOUND IN ANCIENT GRAVES OF NAKHCHIVAN

The examination of jewelry samples from Nakhchivan from the ancient era yields extensive insights into the cultural and social facets of this era, including the level of craftsmanship, social structure, and religious beliefs. The jewelry found in the monuments, especially beads, seals, and bracelets made of various minerals, provide an opportunity to better study the life and worldview of people in that period. Thus, these finds are not only samples of jewelry, but also material objects that reflect the past, provide information about the lost cultures and worldview of ancient people.

**Keywords:** *Nakhchivan, ancient period, jewelry, beads, bracelets.*

**Зинят Мамедова**

## ОБРАЗЦЫ УКРАШЕНИЙ, ОБНАРУЖЕННЫЕ В АНТИЧНЫХ МОГИЛАХ НАХЧЫВАНА

Изучение образцов украшений Нахчывана античного периода дает обширную информацию о культурных и социальных аспектах этого периода, а также уровне мастерства, социальной структуре и религиозных верованиях. Украшения, выявленные из памятников, особенно бусы, печати и браслеты из различных минералов, дают возможность лучше изучить жизнь и мировоззрение людей в тот период. Таким образом, эти находки являются не только образцами украшений, но и материальными объектами, которые отражают прошлое, дают информацию об утраченных культурах и мировоззрении древних людей.

**Ключевые слова:** *Нахчыван, античный период, украшения, бусы, браслеты.*

*(AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 04.02.2025**
**Son variant 04.03.2025**